

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 dekabr 2022-ci il №93 (2704) https://mod.gov.az Qiyməti 30 qəpik


*Döyüş hazırlığı*

## “Ordu xalqın inam yeri, xalq ordunun ilham mənbəyidir”



***Müasir dövrdə aparılan döyüşlər zamanı modern və innovativ silah və texnikaların tətbiqi danılmaz faktdır. Son illərin statistikasına nəzər salsaq görərik ki, dünyada baş vermiş döyüşlərdə qələbəni sürətləndirən və şərtləndirən əsas amillər müasir silah və texnikanın uğurlu tətbiqi ilə yanaşı, şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığıdır. Azərbaycan Ordusunun arsenalına da yeni dövrün tələblərinə uyğun silahların daxil edilməsi prosesi davamlı və sistematik şəkildə həyata keçirilir.***

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, müasir standartlara cavab verən döyüş vasitələrinin alınması Azərbaycan Ordusunun müdafiə qüdrətinin artmasına və dünyanın güclü orduları sırasında yer tutmasına mühüm təsir göstərir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da qeyd etdiyi kimi, "Ən müasir silah və texnikanı da əsgər idarə edir" fikrinə əsaslanaraq deyə bilərik ki, müasir standartlara cavab verən silah-texnikanın istismarı üçün şəxsi heyət hazırlıqlı olmalıdır. Mütəmadi olaraq həyata keçirilən təlimlər şəxsi heyətin təcrübəsinin artırılmasına yönələn prosesdir. Təcrübə isə hər işin vacib şərtidir. Keçirilən müxtəlif miqyaslı təlimlərdə iştirak edən hərbçilərimiz qazandığı bilikləri uğurla tətbiq edir və ordumuzun qüdrətinin artmasına öz töhfələrini verirlər. Məlumdur ki, bu gün Azərbaycan Ordusunda kifayət qədər bacarıqlı hərbi qulluqçular xidmət edirlər. Savadlı zabitlərin səyi ilə əsgərlər öz bilik və bacarıqlarını artırır, üzərlərinə düşən ümdə vəzifəni layiqincə yerinə yetirirlər. Sadalanan məsələlərin hər birinin başında orduya diqqət və əsgərə etimad dayanır.

"N" hərbi hissəsinin şəxsi heyəti məşğələ rəhbərinin iştirakı ilə keçirilən çöl dərsində iştirak edirdi. Bölmənin hərbi qulluqçularının verilən tapşırıqları operativ və dəqiqliklə yerinə yetirməsi yüksək döyüş hazırlığının göstəricisi idi. Məşğələdən sonra kapitan Elnur Əsədullazadə ilə həmsöhbət oldum. O, 2008-2011-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2011-2015-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsilini başa vurduqdan sonra "leytenant" rütbəsi ilə xidmətə başlayıb. Zabit söhbət zamanı bildirdi ki, hər kəs üzərinə düşən vəzifəsinin və ixtisasının incəliklərinə dərindən yiyələnsə, yaxşı nəticə əldə edərək uğur qazanacaq. "Bölmənin şəxsi heyəti ona təhkim olunan silah haqqında həm nəzəri, həm də praktiki vərdişlərə malikdir. Hərbi təhsil aldığım müddətdə təcrübəli müəllimlər tərəfindən tədris edilən ixtisas biliklərini indi tabeliyimdəki şəxsi heyətə aşılayıram. Onların peşəkar döyüşçü kimi formalaşması üçün komandir heyəti olaraq üzərimizə vacib iş düşür. Hər kəs öz vəzifəsinin incəliklərini və üzərinə düşən məsuliyyəti dərindən anlayır.

(Ardı 4-cü səhifədə)




Hərbi hissənin yaradılmasının 160 illiyi münasibətilə tədbir keçirilib

3-cü səhifədə



“Bu torpağın yolunda Torpağa dönmək gərək!!!”

5-ci səhifədə



Qəhrəmanlar unudulmur...

6-cı səhifədə



Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir

8-ci səhifədə

# Azərbaycanın müdafiə naziri Pakistanın HDQ komandanı ilə görüşüb





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, dekabrın 1-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Muhammad Amcad Xan Niazi ilə görüşüb.

Əvvəlcə pakistanlı qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirələrini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

General-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Xalqlarımız arasında etimadın olduğunu, Azərbaycan-Pakistan əlaqələrinin və strateji tərəfdaşlığının yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.

Pakistan İslam Respublikasının müdafiə nazirinin salamlarını çatdıran admiral M.A.X.Niazi ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin vacibliyini qeyd edib.

Görüşdə Azərbaycan, Pakistan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi xüsusi vurğulanıb.

Sonda ölkələrimiz arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi ABŞ Milli Qvardiya Bürosunun rəisi ilə görüşüb



Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ABŞ Milli Qvardiya Bürosunun rəisi general Daniel Hokanson ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tərəflər "Ştatla Tərəfdaşlıq Proqramı" çərçivəsində hərbi əməkdaşlığın cari vəziyyəti və perspektivlərini, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Görüşdə Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı səfiri Xəzər İbrahim də iştirak edib.



# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Oklahoma ştatında bir sıra görüşlər keçirib





*Amerika Birləşmiş Ştatlarında səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Oklahoma Ştatının Qubernatoru Kevin Stitt və Milli Qvardiyasının rəisi briqada generalı Tomas Mançino ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, general-polkovnik K.Vəliyev K.Stittin 2021-ci ildə ölkəmizdə olarkən işğaldan azad edilmiş bölgələrə səfər etməsini əlaqələrimizin yüksək səviyyədə olmasının bariz nümunəsi kimi dəyərləndirib.

Azərbaycan Ordusunun hərbi qulluqçularının beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakından danışan general-polkovnik K.Vəliyev, Azərbaycanın üzərinə götürdüyü vəzifə və öhdəlikləri layiqincə yerinə yetirərək Əfqanıstandan sülhməramlılarını çıxaran son tərəfdaş ölkələrdən biri olduğunu qeyd edib.



Tərəflər "Ştatla Tərəfdaşlıq Proqramı" çərçivəsində Azərbaycan Ordusu ilə Oklahoma Ştatının Milli Qvardiyası arasında keçirilən birgə tədbirlərə dair ətraflı fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Sonra nümayəndə heyətimiz Azərbaycan Ordusu ilə Oklahoma Milli Qvardiyası arasında əməkdaşlığın 20 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib.

# Azərbaycan və Özbəkistan HHQ arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, noyabrın 30-da Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası müdafiə nazirinin müavini - Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələri komandanı general-mayor Əhməd Burxanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

General-leytenant R.Tahirov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib, Azərbaycan ilə Özbəkistan arasında digər istiqamətlərdə olduğu kimi, hərbi aviasiya və hava hücumundan müdafiə sahələrində də əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.



Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən general-mayor Ə.Burxanov dövlətlər arasında müsbət əlaqələrin hər iki ölkənin Hərbi Hava Qüvvələrinin inkişafına töhfə verəcəyini xüsusi qeyd edib.

Görüşdə Azərbaycan və Özbəkistan HHQ arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

Sonda nümayəndə heyəti Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsinə gələrək burada görülən işlərlə tanış olub.

# Özbəkistan müdafiə nazirinin müavini HHQ-nin hərbi hissəsində olub



*Dekabrın 1-də Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası müdafiə nazirinin müavini - Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələri komandanı general-mayor Əhməd Burxanov ilə birgə HHQ-nin "N" hərbi hissəsini ziyarət ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, burada Özbəkistan nümayəndə heyətinə hərbi hissənin silahlanmasında olan döyüş texnikası və aviasiya-uçuş vasitələri haqqında geniş məlumat verilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib və xatirə şəkli çəkdirilib.

# Azərbaycan və Pakistan HDQ-nin inkişaf perspektivləri müzakirə edilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Bakıda Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Muhammad Amcad Xan Niazinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Əvvəlcə HDQ-də rəsmi qarşılanma mərasimi keçirilib. Pakistan HDQ komandanı fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin Dövlət Himni səsləndirilib.

Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi önünə əklil qoyularaq xatirəsi ehtiramla yad edilib.

Sonra Pakistan nümayəndə heyətinin rəhbəri "Fəxri qonaqlar kitabı"nı imzalayıb.



HDQ komandanı vitse-admiral S.Bəkirov qonaqları salamlayaraq ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib.

Nümayəndə heyətinə HDQ-nin tarixi və fəaliyyəti haqqında geniş brifinq təqdim edilib.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən admiral M.A.X.Niazi hər iki ölkənin HDQ-nin daha da inkişaf etdirilməsi istiqamətində görülən işlərin əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan-Pakistan HDQ arasında hərbi, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra hərbi gəmilərə baxış keçirilib, onların taktiki-texniki xüsusiyyətləri, həmçinin gəmi heyətinin yerləşməsi və qidalanması ilə bağlı nümayəndə heyətinə məlumat verilib.



# Hərbi hissənin yaradılmasının 160 illiyi münasibətilə tədbir keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, noyabrın 30-da Hərbi Dəniz Qüvvələrinin tabeliyində olan "N" hərbi hissəsinin yaradılmasının 160 illiyi ilə əlaqədar tədbir keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriki oxunub.






Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov geniş məruzə ilə çıxış edərək hərbi hissənin yaranma zərurətindən, fəaliyyətindən, misilsiz töhfələrdən söz açıb və şəxsi heyəti təbrik edib.

Digər çıxış edənlər də Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində apardığı siyasətin bu gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini xüsusi vurğulayıblar.

Sonda xidmətdə fərqlənən və yüksək nizam-intizamı ilə seçilən şəxsi heyətin bir qrupu mükafatlandırılıb.

# "Ordu xalqın inam yeri, xalq ordunun ilham mənbəyidir"

(Əvvəli 1-ci səhifədə)



Hal-hazırda bölməmizin şəxsi heyətinə ona təhkim olunmuş "Sand Cat" zirehli texnikanın üzərinə quraşdırılmış tank əleyhinə idarəolunan raket (TƏİR) qurğusunun istifadəsi ilə bağlı nəzəri və praktiki məşğələ keçirik. Dövrümüzün və perspektivin tələblərinə əsasən tanklar, PDM və digər zirehli texnika, həmçinin mühəndis qurğuları, aşağı hündürlükdə uçan hava hədəfləri, həmçinin müxtəlif relyefdə və günün müxtəlif vaxtlarında düşmənin canlı qüvvəsini məhv etmək qabiliyyətinə malikdir. Raket havada olarkən onun tuşlandığı hədəfi dəyişmək mümkündür. Tank əleyhinə idarəolunan raket qurğusu artilleriya və motoatıcı bölmələrlə yanaşı, mobil versiyada "Sand Cat" zirehli döyüş maşınının üzərinə quraşdırıla bilir. Bu texnika həm təlimlərdə, həm Aprel döyüşlərində, həm də 44 günlük Vətən müharibəsində özünü yaxşı mənada təsdiq edib.

2016-cı il Aprel döyüşlərinin və İkinci Qarabağ müharibəsinin iştirakçısı olmuşam. Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişəm. Müharibə tək insanın fərqlənəcəyi bir mühit deyil. Bizlər bu müharibədə dəmir yumruqtək vahid amal uğrunda birləşdik. Düşmənin darmadağın edilməsi və tarixi torpaqlarımızın işğaldan azad olunması üçün misilsiz rəşadət göstərən Azərbaycan əsgəri qəhrəmanlıq salnaməsini birlikdə xalqla vəhdətdə yazdı".





Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Sahib Məmmədov bildirdi ki, hərbi xidmətdə əldə edilən uğurun arxasında peşəkarlıq və ciddi hərbi hazırlıq dayanır. "Dərslərdə və məşğələlərdə qazanılan biliklər təlim və məşqlərdə sınaqdan keçirilir. Şəxsi heyət təhkim olunan silah və texnikanın taktiki-texniki xüsusiyyətlərini daha da dərindən mənimsəyir, istifadə qaydasını təkmilləşdirir. Bölmənin təlimlərdə yüksək nəticə göstərməsinin başlıca səbəblərindən biri mütəmadi keçirilən məşğələlərdir. Bu da döyüş hazırlığının ciddi nəzarətdə saxlanıldığının göstəricisidir".

Müsahibimlə söhbət əsnasında öyrəndim ki, o da İkinci Qarabağ müharibəsi iştirakçısıdır və döyüşdə xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Azər Məmmədov bildirdi ki, peşəkar döyüşçü olmanın əsası mütəmadi hərbi hazırlıq, yüksək döyüş ruhu və qələbə əzmindən başlayır. "Qazandığı Böyük Qələbə ilə ordumuz dünya tarixinə silinməz bir iz qoydu. Bu zəfər Azərbaycan Ordusunun peşəkarlığını, Azərbaycan əsgərinin Vətən sevgisini bütün dünyaya nümayiş etdirdi. Gərgin əməyin, təcrübəli komandirlərin tədris etdiyi dərslərin, keçirilən təlimlərdə tökülən tərin nəticəsi oldu bu Zəfər. Vətən müharibəsində əldə olunan qələbəyə baxmayaraq təşkil olunan müxtəlif miqyaslı təlimlərdə qazandığımız bilikləri praktiki olaraq sınaqdan keçirir, komandirlərimizin bizə olan etimadını layiqincə doğrulduruq. Qarşıya qoyulan normativləri dəqiq, vaxtında və qüsursuz yerinə yetiririk. Peşəkar komandirlərin rəhbərliyi altında keçirilən dərslər, məşğələlər sayəsində şəxsi heyətin hərbi bilikləri artır. Bu da öz növbəsində verilən tapşırığın icrasında operativliyi təmin edir".

Azər də 44 günlük haqq savaşının iştirakçısıdır və xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Zabit Elnur Əsədullazadə bizi əkiz qardaşlar - əsgərlər Sənan və Kənan Babayevlə tanış etdi. Vətənə vətəndaşlıq borcunu ödəyən əkiz qardaşlar bildirdilər ki, Vətən sevgisi ailədə, cəmiyyətdə aşılanır. "Aşılanan bu sevgi Vətən keşiyində məğrur durmağa sövq edir. Ata-babalarımızın bizə qanı və canı bahasına yadigar qoyduğu, əmanət etdiyi bu torpaqları qorumaq dünən atalarımızın borcu idisə, bu gün bizim, sabah övladlarımızın borcudur", - Sənan söhbətə başladı. "Torpağı vətənləşdirən, Vətəni bütövləşdirən üzərindəki qandır. Üzərində gəzdiyimiz yerlərin hər qarışı uğrunda qanlar axıdılıb, canlar fəda edilib. Bu gün komandirlərimizin bizə öyrətdiyi hərbi bilikləri dərindən mənimsəyirik ki, layiqli Vətən müdafiəçisi olaq və nümunəvi xidmətimizlə doğmalarımıza hər zaman başucalığı gətirək. Komandirlərimiz 44 günlük haqq savaşında iştirak ediblər və döyüşdə qazandıqları təcrübəni bizimlə bölüşürlər. Hər birimizin qürur tarixi olan 44 günlük Vətən müharibəsi zamanı şəhid, qazi və döyüşlərin iştirakçısı olan qardaşlarımıza demək istəyirik ki, Vətən keşiyində məğrur dayanmışıq".

Söhbətimi əsgər Kənan Babayevlə davam etdirdim. Gənc Vətən müdafiəçisi qeyd etdi ki, ərazi bütövlüyümüz və müstəqilliyimiz uğrunda canından keçmiş şəhidlərimizin ömür yolu gənclərimiz üçün örnəkdir, qəhrəmanlıq və vətənpərvərlik nümunəsidir. "Bunun üçün də hər bir Azərbaycan vətəndaşı öz qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan vacib nəticələr çıxarmalıdır. Çünki torpaqlarımızın müdafiəsi, Vətənimizin qorunması yolunda canını və qanını əsirgəməyərək, qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur.

44 günlük haqq savaşımız zamanı illərdir davam edən erməni təcavüzünə və terrorizminə qarşı layiqli cavab verildi, xalqımız bu yolda səfərbər oldu, qəhrəman oğullarımız Vətən, millət naminə düşmənə qarşı ölüm-dirim mübarizəsinə qalxdı. Hər bir azərbaycanlı müqəddəs amal uğrunda, ədalətin bərpası uğrunda yumruqtək Ali Baş Komandanın ətrafında sıx birləşdi. Hər kəs bu döyüşdə qazanılan qələbəyə töhfə vermək, Azərbaycan Ordusuna dəstək nümayiş etdirmək üçün əlindən gələni etməyə çalışırdı. Və hər günü bir ömrə bərabər olan İkinci Qarabağ müharibəsi ilə rəşadətli ordumuz döyüş meydanında düşməni darmadağın etdi, qələbə qazandı. Bu gün komandirlərimizin dediyi kimi: "Ordu xalqın inam yeri, xalq ordunun ilham mənbəyidir". Qəhrəman Azərbaycan əsgərinin Azərbaycan gəncliyi üçün qoyub getdiyi vətənpərvərlik nümunəsi və tariximizin şərəfli səhifəsi olan Böyük Qələbə gələcək qələbələrimizin də müjdəçisidir. Bu günün Vətən müdafiəçisi olaraq, özümüzün qarşımıza qoyduğumuz əsas məqsəd ondan ibarətdir ki, ata-babalarımızdan bizə miras qalan Vətən torpaqlarını layiqincə qoruyub, əsl vətəndaş olaraq üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gələk".

Bu gün hər bir azərbaycanlı fəxarət hissi ilə yaşayır. Çünki Vətən həsrətinə son qoyulub. 44 günlük Vətən müharibəsində təcrübəli komandirlərimiz bir daha sübut etdilər ki, vəzifəsindən, rütbəsindən asılı olmayaraq hər kəs öz Vətəninin müdafiəsi üçün əlindən gələni etməyə hazırdır. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusunun həm tətbiq etdiyi uğurlu döyüş taktikası, həm də şəxsi heyətin yüksək döyüş ruhu qələbəni tezləşdirən amillərdən oldu. Ordumuzun bu gün dünyanın aparıcı orduları sırasında olmasında, hazırkı səviyyəsinə çatmasında uzun yol qət edilib. Təqdirəlayiq haldır ki, müharibənin ölkənin iqtisadiyyatına göstərdiyi təsir bu gün ölkəmizdə hiss olunmur. Əksinə, ölkəmizin inkişaf tendensiyasında mühüm diqqət ayrılan sahələrdən biri məhz ordudur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz inkişaf dövrünü yaşayan Azərbaycan Ordusunda bu gün də mühüm işlər görülür. Dünyanın aparıcı orduları ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində Azərbaycan əsgəri havada, suda və quruda öz üzərinə düşən müqəddəs borcu şərəflə yerinə yetirir, Vətənin maraqlarını layiqincə qoruyur. Döyüş hazırlığının yüksəldilməsi, ordumuzun maddi-texniki bazasının modern tələblər səviyyəsində qurulması və təlim-tədris prosesinin dövrün tələbləri səviyyəsində həyata keçirilməsi prosesi icra olunur. Sevindirici haldır ki, aparılan uğurlu siyasət nəticəsində Azərbaycan Ordusu bu gün dünya dövlətlərinin içində özünəməxsus yer tutub. Müasir döyüş vasitələri və yüksək döyüş ruhuna malik Azərbaycan Ordusu ona göstərilən inamı doğrultmağa, Ali Baş Komandanın hər bir əmrini icra etməyə tam hazırdır.

**Baş leytenant
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

# “Bu torpağın yolunda Torpağa dönmək gərək!!!”

Vətən sevgisi, vətənpərvərlik, şəhidlik... Bunlar dərin məna, müqəddəslik, əbədilik kəsb edən və bir-biri ilə qırılmaz tellərlə bağlı olan ifadələrdir. Bu sözlərin əxz etdiyi ülvi hissləri tarix boyu həmişə uca tutmuşuq. Bu mənəviyyatla tərbiyə olunan igidliyi, mərdliyi ruhlarına hopduran oğullarımız qəhrəmanlıq salnamələri yazaraq, müstəqilliyimizi, ərazi bütövlüyümüzü təmin edib, xalqımıza qələbə sevincləri yaşadıblar. Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar. Şəhadətləri ilə ölümsüzlük qazanıblar. Qəhrəmanlıq tariximizə adlarını əbədi olaraq həkk ediblər. Onlar ən dərin, ən müqəddəs və ən ülvi hisslərdən güc alaraq Vətən yolunda şücaət göstərib, qəhrəmancasına şəhid olublar. Bütün zirvələrdən uca olan şəhidlik vətənpərvərliyin ən ali məqamıdır. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəflidir, örnəkdir və onlar heç zaman ölmürlər.



Vətən yolunda ölümün gözünə dik baxan oğullardan biri də Xəyal Əliyulla oğlu Həsənovdur. İkinci Qarabağ müharibəsində şəhid olan əsgər Xəyal Həsənov 30 noyabr 1998-ci ildə Şabran rayonunun Surra kəndində anadan olub. Orta təhsilini əvvəlcə Surra kənd orta məktəbində, daha sonra Məmmədağa Nəzərov adına Şabran şəhər 4 nömrəli orta məktəbində alıb. Məzun olduqdan sonra Azərbaycan Mühəndislik və İnşaat Universitetinin İnşaat Kollecinə daxil olub. Kolleci müvəffəqiyyətlə bitirdikdən sonra Vətənə övladlıq borcunu yerinə yetirmək üçün ordu sıralarına yollanıb. "N" hərbi hissəsində həqiqi hərbi xidmətə başlayan şəhidimiz daha sonra xidmətini Xüsusi Təyinatlı Qüvvələrin sıralarında davam etdirib.



2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsinin ilk günündən döyüşlərə qatılıb. Qarşısına qoyulan döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gələn Xəyal mənfur ermənilərin illər boyu qurduğu və heç bir ordunun yara bilməyəcəyini iddia etdiyi “Ohanyan səddi”nin yarılmasında igidliklə döyüşüb. Daha sonra Xəyal xidmət etdiyi bölmə ilə Füzuli-Cəbrayıl istiqamətində irəliləyib. Cəbrayılı azad etmək üçün şiddətli döyüşlərə başlayıblar. Qorxmaz, igid, mübariz ərlərimizin qarşısında tab gətirməyən düşmən qaçmağa məcbur olub. Təəssüf ki, bu döyüş Xəyalın son döyüşü olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün ölümündən sonra Həsənov Xəyal Əliyulla oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. 22 illik qısa ömür yoluna şərəfli bir tarix yazan Xəyal Həsənov böyüyüb boya-başa çatdığı Şabran rayonunun Surra kəndində torpağa tapşırılıb.

Noyabrın 30-da gənc qəhrəmanımızın doğum günü münasibətilə anım mərasimi keçirildi. Mərasimə toplaşan döyüş yoldaşları, ailə üzvləri, yaxınları, təhsil aldığı orta məktəbin müəllim və şagird kollektivi, şəhid ailələri, rayon ictimaiyyəti və digər qonaqlar onun məzarını ziyarət etdilər. Ehtiram məqsədilə tər güllər və çələnglər qoydular. Şəhidin ruhuna dualar oxunduqdan sonra evlərinin qarşısında anım mərasimi keçirildi. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Şəhidin valideynləri Əliyulla və Zərnişan Həsənovlar çıxış edərək anım mərasiminə gələn qonaqları salamladılar. Kövrək hisslərin ağuşunda çıxış edən valideynlər məğrurluqla və qürurla Xəyalın uşaqlığından, məktəb illərindən danışdılar. Onun qoçaqlığından, Vətən sevgisindən ağızdolusu söz açdılar. Rəşadətli ordumuzun şanlı qələbəsindən, işğaldan azad olunan torpaqlarımızda üçrəngli Azərbaycan bayrağının dalğalanmasından təsəlli tapdıqlarını diqqətə çatdırdılar. "Vətən bizə əcdadlarımızın əmanətidir. Əmanət olan bu Vətəni qorumaq hər birimizin borcudur. Vətəni qorumaq üçün onu sevmək lazımdır. Xəyal və onun kimi minlərlə şəhidimiz bir daha sübut etdilər ki, Azərbaycan oğulları vətənpərvərdir, milli-mənəvi dəyərlərimizə sadiqdir, Vətəni dərin məhəbbətlə sevir və Vətən uğrunda canlarından keçməyi bacarırlar. Belə mərd oğullarımız qələbə tarixini öz qanları ilə yazdılar. Bu müqəddəs yolda canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar, gələcək nəsillərə örnək ömür yadigar qoydular", - deyən valideynlər şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Şəhidin döyüş yoldaşları çıxış edərək Xəyalla bağlı xa-



tirələrindən danışdılar. Onun döyüşlərdə göstərdiyi şücaətdən, yaralı silahdaşlarına necə kömək etməsindən, qorxmazlığından söz açdılar. Xəyalın həm də sanitar vəzifələrini icra etdiyini bildirdilər. Deməli, Xəyal həm döyüşürdü, həm də yaralanan silahdaşlarına şəfa olurdu. Göstərdiyi ilkin yardımlarla neçə-neçə silahdaşının xəyallarının yaşamağına səbəbkar olan Xəyanın özü, xəyallarda qaldı. Silahdaşlarının, xalqımızın qəhrəman Xəyalı oldu.

Çıxış edən digər qonaqlar Azərbaycanın bütövlüyü uğrunda, torpaqlarımızın qorunmasında canlarından keçmiş şəhidlərimizin qəhrəmanlıq yolunun gənclərimizə örnək olduğunu vurğuladılar. Bildirdilər ki, Azərbaycanın elə bir bölgəsi, elə bir kəndi tapılmaz ki, orada bir şəhid məzarı olmasın, onları yaşatmaq, tanıtmaq hamımızın vətəndaşlıq borcudur.

Sonra Xəyalın oxuduğu Surra kənd orta məktəbinin şagirdləri onun əziz xatirəsinə həsr etdikləri şeirlərini səsləndirdilər. Şagirdlərin çıxışlarından sonra tədbir iştirakçıları şəhidimizin yaşadığı evin bir otağında çoxlu sənədlər, məktublar, şəkillər, xatirə əşyalarının toplandığı guşəyə baxdılar. Cəmi 22 illik bir ömrün müxtəlif anlarını əks etdirən guşəni maraqla izlədilər, çox qısa, lakin mənalı bir ömrün səhifələrini, igidin keçdiyi şərəfli döyüş yolunu bir-bir vərəqlədilər.

...Vətənpərvərlik mövzusu yaradıcılığının ana xətti olan xalq şairimiz Bəxtiyar Vahabzadənin söz silahından çıxan bu mərmiləri xatırlayıram:

Vətənin arxasında,  
Biz həmişə dağ olduq.  
Vətən bizimçün deyil,  
Biz Vətənçün doğulduq.  
Vətən adlı ocağa  
Hər gün isinmək gərək.  
Bu torpağın yolunda  
Torpağa dönmək gərək!!!

Anım mərasiminə toplaşan hər kəs bir inama köklənir - Xəyal kimi minlərlə qəhrəmanı torpağa dönən, arxasında minlərlə dağ olan Vətənimiz daim var olacaq.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# “Laçında hərbi infrastrukturun qurulması istiqamətində ciddi addımlar atılır”

Vətən müharibəsində kapitulyasiya aktına imza atan Ermənistan Laçın rayonunu 2020-ci il dekabrın 1-də tamamilə tərk etmək məcburiyyətində qaldı. Digər iki rayonumuz olan Ağdam və Kəlbəcərlə yanaşı, kifayət qədər mürəkkəb coğrafi relyefə malik Laçın rayonunun Azərbaycan Ordusunun nəzarətinə keçməsi Ermənistanın Qarabağla uzun illər boyu davam edən maneəsiz əlaqəsinə son qoydu.

Bu barədə hərbi ekspert Ədalət Verdiyev AZƏRTAC-a açıqlamasında deyib.

Hərbi ekspertin sözlərinə görə, Ermənistanla davam edən 26 illik danışıqlar prosesində rəsmi İrəvan Kəlbəcər və Laçını müzakirələr mövzusundan daim kənarda saxlamağa çalışırdı. Çünki birinci dəhliz Laçından, sonradan çəkilən Basarkeçər-Kəlbəcər-Ağdərə yolu isə Kəlbəcərdən keçirdi. Buna görə də düşmən tərəf bu ərazilərin müzakirəsindən mümkün qədər yayınmağa çalışırdı. Çünki çox yaxşı anlayırdı ki, Laçının Azərbaycanın nəzarətinə keçməsi Ermənistanın Qarabağla olan bağlarının qopmasına səbəb olacaq.

Ə.Verdiyev xatırladıb ki, Ermənistan ən çox məskunlaşdırmanı da Laçın ərazisində planlaşdırırdı. Çünki bu ərazidə erməni əhalinin sayını artırmaqla oranı özününküləşdirmək niyyətləri mövcud idi. Lakin Azərbaycan Ordusunun qəhrəman şəxsi heyəti bütün bu planları tamamilə pozdu. Əvəzində isə Azərbaycan artıq bu ilin avqustundan Laçın şəhərində yenidənqurma və bərpa işlərinə başladı. Həmin ərazilərdə kifayət qədər ciddi potensiala malik hərbi birlik və hissələr artıq yerləşdirilib. Hərbi infrastrukturun qurulması istiqamətində ciddi addımlar atılır və bu proseslər indi də aktiv fazadadır.

"Laçın və digər iki rayonun atəş açılmadan, itki vermədən imzalanmış birgə bəyanatın şərtlərinə əsasən Azərbaycana qaytarılması bir daha onu göstərir ki, Vətən müharibəsində Ermənistan acı məğlubiyyətini qəbul edib. İmzaladığı birgə bəyanat da məhz kapitulyasiya aktıdır. Çünki heç bir ordu, xüsusilə də 30 il bir qarış olsun torpağımızı boşaltmaq istiqamətində addım atmayan Ermənistanın çox böyük ərazilərə malik Kəlbəcər və Laçın rayonlarını, o cümlədən Ağdam rayonunu boşaltması onu göstərir ki, Ermənistan Vətən müharibəsində darmadağın edildi. Laçın rayonunun Azərbaycana qayıtması Azərbaycanın Vətən müharibəsindəki tarixi qələbələrindən biridir", - deyə ekspert vurğulayıb.

Tarix yazan oğullar

# Qəhrəmanlar unudulmur...

*İkinci Qarabağ müharibəsində iştirak edən zabit və əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıqlar göstərdilər. Göstərilən bu qəhrəmanlıqlar xalqımıza qələbə sevinci yaşatdı.*

Mayor Emin Süleymanov İkinci Qarabağ müharibəsinin ilk günündən döyüşlərdə iştirak edib. Artilleriyaçı kimi üzərinə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlib. 27 sentyabr 2020-ci ildə başlanan döyüş yolu 9 noyabr 2020-ci ildə Şuşa istiqamətində tamamlanıb. Ertəsi gün İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə başa çatıb. Vətən qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirib. Zabit torpaqlarımızın azadlığı uğrunda şəhid olub. Son nəfəsində də "Vətən" deyib...

İkinci Qarabağ müharibəsində vəzifə borcunu şərəf və



ləyaqətlə yerinə yetirdiyinə görə mayor Emin Bəhmən oğlu Süleymanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Emin Süleymanov 21 iyul 1977-ci ildə İmişli rayonunun Xubyarlı kəndində dünyaya göz açmışdı. 1993-cü il Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşdu.

1995-1999-cu illərdə ali hərbi təhsilini artilleriya ixtisası üzrə alan Emin leytenant rütbəsi ilə hərbi hissələrdən birinə taqım komandiri təyin edildi. Xidmətə böyük həvəslə başlayan gənc zabit hərbi məktəblərdə öyrəndiyi bilikləri böyük həvəslə ordu sıralarında əsgərlərə öyrədirdi.

Sonrakı illərdə Emin Süleymanov ayrı-ayrı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət etdi. Həmişə də üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldi. Vətən müharibəsində mayor Emin Süleymanovun döyüş yolu Murovdağdan başladı. Bir müddət bu istiqamətdə vuruşduqdan sonra onların bölmələrini Füzuli rayonuna göndərdilər. Emin bu istiqamətdə vuruşa-vuruşa Cəbrayıldan, Zəngilandan, Qubadlıdan və Laçından keçərək Şuşanın ətrafınacan gedib çıxdı. Son döyüşü də elə burada oldu.

Həyat yoldaşı Məhsəti Süleymanova Eminli günlərindən və onun son zəngindən söz açaraq dedi:

- İki övladımız var. Emin çox vətənpərvər bir zabit idi. Söhbətinin əvvəli də, sonu da Vətən idi. Ən böyük arzusu işğalda qalmış torpaqlarımızın azad olunmasıydı. İkinci Qarabağ müharibəsində döyüşlərə yola düşəndən sonra tez-tez zəng vurub uşaqlardan hal-əhval tutur, uğurlu döyüşlərindən danışırdı. Son zəngi noyabrın 7-də oldu. Dedi ki, artıq Şuşaya yaxınlaşırıq. Bu gün-sabah Şuşanı da işğaldan azad edəcəyik. Bu, onun son zəngi oldu. Emin noyabrın 9-da şəhid oldu. Onu İmişli rayonunun Xubyarlı kəndində torpağa tapşırdıq. Həyat yoldaşımın qəhrəmanlığı, igidliyi ilə həmişə fəxr edəcəyəm. Övladlarımı onun adına layiq böyütməyə çalışacağam.

Mayor Emin Süleymanov ömrünün 43-cü ilini yaşayırdı. Ondan geriyə qalanlar isə yaşadığı şərəf dolu illər və İkinci Qarabağ müharibəsində göstərdiyi igidlik və qəhrəmanlıqlar oldu.

Qəhrəmanlar heç vaxt unudulmur...

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, noyabrın 30-u saat 14:40-dan saat 15:50-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Şuşa və Ağdam rayonları istiqamətlərində yerləşən mövqeləri müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutulub.

Qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

* * *

Noyabrın 30-u saat 19:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Bəzirxana yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# "Hər kəs Xüsusi Təyinatlı Rüstəm gəlir" - deyəcək

*Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidələrindən biri olan Kitabi-Dədə Qorqud dastanlarından görürük ki, Oğuz elinin ərənləri üçün torpaq, Vətən sevgisi hər şeydən ucadır. Əsrlər keçsə də, bu sevgi əli qılınc tutanları Vətən naminə qələbəyə aparıb. Dövlətçilik naminə həmişə belə olub. 2020-ci ilin sentyabrında da belə oldu. Şəhidliyə hazır olan oğullar əllərində silah, könüllərində isə "Qarabağ Azərbaycandır!" şüarı ilə irəli atılaraq düşmənin kinli niyyət və planlarını darmadağın etdilər. 2020-ci ilin 27 sentyabr tarixindən başlayan Vətən müharibəsi düşmənin sinəsinə dağ çəkdi, torpağımızdan yapışmış yad əlləri qoparıb atdı.*



Tanıyanlar Rüstəm Atakişiyevdən ağızdolusu danışırlar. Rüstəm hər kəsin doğması, sevimlisi olmağı bacarmışdı. Onun qəbrini ziyarət etdik. Xatirə bulağının qarşısında dayanıb, şəkildəki baxışlarında duyduğumuz saflığı, məsumluğu könlümüzə köçürdük.

Rüstəm Atakişiyev 2000-ci il dekabrın 24-də anadan olub. İki qız övladından sonra evin sonbeşiyi olan Rüstəm bacılarının dediyinə görə evin istəklisi idi. Bacısı Həzin Məmmədova doluxsunaraq qardaşının uşaqlığını xatırlayır: "Rüstəm sakit uşaq idi. Heç vaxt bizi incitməz, sözümüzdən çıxmazdı. Hər kəslə yola gedərdi. O, 2007-ci ildə ibtidai sinifdə təhsil alırdı. Hər dəfə qardaşımı məktəbə aparıb-gətirdikdə müəllimlərinin razılıqlarını eşidib sevinirdim. Boş vaxtlarında futbolla məşğul olmağı sevirdi. Bir dəfə gördüm ki, telefonda videogörüntüyə baxaraq doluxsunub. Səbəbini soruşduqda mənə həmin görüntünü göstərdi. Şəhid övladının ağlayaraq şeir deməsi onu kövrəltmişdi. İndiyə kimi Rüstəmin bu qədər kövrəldiyini görməmişdim. Bilirdik ki, uşaqlıqdan Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etməyi arzulayır. Hətta sosial şəbəkələrdə bioqrafiyasına "Hər şeyin bitdiyi yerdə Xüsusi Təyinatlılar başlar", - deyə bir hissə əlavə etmişdi. Birlikdə oturub söhbət etdikdə bizə deyərdi ki, bir gün əsgərlikdən qayıdacam və hər kəs "Baxın, Xüsusi Təyinatlı Rüstəm gəlir" - deyəcək.

Ona 2019-cu ilin yanvarında hərbi xidmət üçün çağırış gəlməli idi. Ancaq çağırış vərəqəsi almamışdı. Bu hadisə Rüstəmi dərindən sarsıtmışdı. Hərbi xidmətə yollanmağı arzulayırdı. Həmin ilin iyul ayında əsgər forması geyinərək hərbi xidmətə yollandı", - Həzin dedi.

Rüstəm "N" hərbi hissəsində xidmət edirdi. Xüsusi Təyinatlı Qüvvələrə seçimlər zamanı o da seçilənlər sırasındaydı. Ailəsi bildirdi ki, hər sözünü, sirrini bizlərə açıb deyən Rüstəm artıq heç nə demirdi. Onun hərbi xidmətdə bütün göstəriciləri yüksək olub. Rüstəm qarşısına qoyduğu məqsədlərə iradəsi hesabına nail olmağı bacarırdı. Komandirlərinin hər dəfə ağızdolusu ondan danışması ailəsini fərəhləndirirdi.

Sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində o, əsgər idi. Rüstəmgil Kəlbəcər, Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etdikdən sonra Füzuli istiqamətində döyüşürlər. Döyüşlər zamanı çiyin nahiyəsindən üç qəlpə yarası alır. Hospitalda ona tibbi yardım göstərilir. Dörd gün orada qaldıqdan sonra döyüş yoldaşlarının, həkimlərin və komandirlərinin təkidlərinə baxmayaraq yenidən ön xəttə yollanır. Yaralı yaralı Vətənin yaralarına məlhəm olmaq üçün yenidən ön xəttə yollanır.

Rüstəm də anlayırdı ki, hər döyüş onun sonuncu döyüşü ola bilər. Ancaq heç bir şübhə, heç bir qorxu onu bu yoldan döndərə bilmədi. Xocavəndin Qırmızı Bazar istiqamətində döyüşdükdən sonra Şuşaya çatmağa az qalmış qəhrəmancasına şəhid oldu. Müharibədə göstərdiyi igidliyə və qəhrəmanlığa görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiqsərəncamları ilə "Azərbaycan Bayrağı" ordeninə, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda", "Şücaətə görə", "Cəsur döyüşçü" medallarına layiq görüldü.

Anası Arifə Atakişiyeva bir qədər kövrəkliklə sözə başladı: "Rüstəm yaralandığını və döyüşlərdə iştirak etdiyini mənə deməmişdi. Hər dəfə onunla danışdıqda hərbi formanı daşımaq fəxarətindən, sevincindən söz açardı. Hospitalda müalicə olunduğu vaxt mənə zəng edib heç nə demədən bacılarının nömrələrini istədi. Sanki ürəyinə dammışdı şəhid olacağı. Sonuncu danışığımız şəhid xəbəri gəlməzdən üç gün qabaq olmuşdu. Mənə "Özündən muğayət ol", - dedi. Üç gün sonra Rüstəmin şəhid xəbəri gəldi...".

Müəllimləri Əlvan və Ramilə ibtidai sinifdə ona dərs deyiblər. "Biz Rüstəmi həmişə dərsə hazır, ağıllı, sakit uşaq kimi tanımışıq. Onun oxumağa nə qədər həvəsli olduğunu bilirdik. Rüstəmin də ən böyük arzusu hərbçi olmaq olmuşdu. Heç birimiz onun şəhidliyinə inana bilmədik. Gözləyirdik ki, Rüstəm bu saat sinfin qapısını açıb yenə həmişəki kimi gəlib bizimlə görüşəcək. Ölümündən sonra kəndimizdə ona ehtiram kimi abidə-bulaq kompleksi ucaldıldı. Qəhrəmanlıq dolu həyat yolu bulağın qarşısından keçən hər bir şagirdə Rüstəmi xatırladır. Müəllimləri olaraq şagirdimizin şücaətindən olduqca qürurluyuq".

Bir uşağın ürəyində Vətəninə, elinə sevgi, istək yoxdursa, ona aşılanan hisslər hədər olacaq. İkinci Qarabağ müharibəsində Rüstəm kimi oğulların timsalında hər bir gəncin Vətənə sevgilərinin qədərsizliyinin şahidi olduq. Məhz bu igidlər sayəsində Azərbaycan əsgəri şəhəri Şuşada, Cəbrayılda, Füzulidə, Kəlbəcərdə, Laçında açır. Əsrlər keçsə də, xalqımız heç vaxt bu Zəfəri unutmayacaq. Nağıllardan eşitdiyimiz Xeyirin Şərə qalib gəlməsi deyimini onlar gerçəkləşdirdilər. Rüstəmlər həmişə olub, var, olacaq...

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# MÜDAFİƏ NAZİRLİYİNİN MƏTBUATA AÇIQLAMASI

Rusiya Federasiyasının sülhməramlı kontingentinin tərəfimizdən edilən müraciətlərə məhəl qoymamasına təəssüf edirik.

Növbəti dəfə bildiririk ki, Azərbaycan Respublikası ərazisindəki yaşayış məntəqələrimizin adlarının uydurma erməni toponimləri ilə qeyd olunması, o cümlədən "Dağlıq Qarabağ ərazisi" ifadəsinin işlənməsi YOLVERİLMƏZDİR.

Rusiya Federasiyasının sülhməramlı kontingentini rəsmi məlumatlarında Azərbaycan ərazilərinin adlarını qeyd edərkən yanlış ifadələrdən istifadə etməməyə çağırırıq.

Rusiya Federasiyasının Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində dərc olunan Rusiya Federasiyasının sülhməramlı kontingentinin 01.12.2022-ci il tarixli rəsmi məlumatında "Dağlıq Qarabağ ərazisi" kimi qeyd olunan ərazinin Qarabağ iqtisadi rayonu, "Mardakert", "Martuni", "Madagiz" və "Getavan" kimi adlandırılan Azərbaycan yaşayış məntəqələrinin rəsmi adlarının isə müvafiq olaraq AĞDƏRƏ, XOCAVƏND, SUQOVUŞAN və QOZLUKÖRPÜ olduğunu xatırladırıq.

# İkinci Qarabağ müharibəsi: qürur tariximiz

*İşğaldan azad edilmiş torpaqlarımızda 2022-ci ilin sentyabr döyüşlərindən danışmışıq. Zabitlər də, əsgərlər də bu döyüşləri Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı Zəfərin davamı bilir. Onların söhbətləri mənə bir gerçəkliyi yaşatdı: bu döyüşlərin iştirakçıları 2020-ci ilin noyabrında Zəfər qazananların davamçılarıdır...*

*İkinci Qarabağ müharibəsinin başlamasının ikinci ildönümündə Azərbaycan əsgərinin dediklərini ucalıqda dalğalanan bayrağımızın əhatəsində dinləmişəm. Gözəl mükalimələşmə idi. Əsgərlər Vətəndən, torpaqdan, döyüşlərdən, qəhrəmanlardan, qəhrəmanlıqlardan sevgilərlə danışırlar...*

**Kapitan İbad Əsədov:**

- İkinci Qarabağ müharibəsi tariximizdə işğalı sonlandırdığına görə, azərbaycanlı gənclərin vətənpərvərliyini, ordu ilə xalqın birliyini yüksəltdiyinə görə, hərbi qüdrəti dünya dövlətlərinin diqqətini çəkdiyinə görə yaşadılacaq...

**Gizir Elvin Məmmədov:**

- Bəli, kapitan İbad Əsədovun dediyi kimi, İkinci Qarabağ müharibəsində qazanılan Zəfərlə torpaqlarımız işğaldan azad edildi. Bu tarix gələcək nəsillərə örnək tarixdi. Mən də, döyüşçü yoldaşlarım da ordumuzun gücü, qüdrəti ilə qürurlanırıq. Bu güc, bu qüdrət Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının hansı səviyyədə olduğunu göstərir.

**Baş leytenant Nicat Həsənov:**

- Mən də Azərbaycan Ordusunun zabiti olmağımla, bu şanlı tarixin hansısa səhifəsində iştirakımla qürurlanıram. Çünki bu tarixin memarı bizlərik.

İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində dedi: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq". Bu qürur da tarix kimi yaşadılacaq. O



günlərdə bu qüruru bizimlə birgə yaşayanlar indi əsgərdilər. Çiyin-çiyinə bizimlə xidmətdədilər.

**Əsgər Elvin İbrahimov:**

- Baş leytenantın dediyi kimi, o qüruru yaşayanlardan biri də mənəm. İkinci Qarabağ müharibəsi başlayanda doqquzuncu sinifdə oxuyurdum. Qonşumuzun oğlu hərbi xidmətdəydi. Onun anasının, kiçik qardaşının həyəcanlarını mən də hiss edirdim. Atası səbirlə deyirdi ki, oğula görə həyəcan keçirərlər, ancaq Vətənə görə narahat olarlar. Narahat olsaq da, inanırıq ki, əsgərlərimiz qələbə qazanacaqlar. Belə də oldu. Qonşumuz tərxis edildikdən sonra onun döyüş təəssüratlarını tarix dərsi kimi dinləyirdim...

**Gizir Elvin Məmmədov:**

- Elvinin timsalında bütün əsgərlərə döyüş təəssüratlarımızı, ermənilərin illərlə qurub yaratdığı istehkam sədlərinin necə dağıdıldığını danışıram. Bildirirəm ki, Ermənistan işğal müddətində güclü sədlər yaratmışdı, möhkəmləndirmişdi, təkmilləşdirmişdi. Azərbaycan Ordusu düşmənin bu sədlərini - "Ohanyan səddi"ni darmadağın etdi. Ordu hissələrimiz döyüşə-döyüşə mühüm qələbələr qazanırdı. Düşmən geri çəkilirdi.

**Əsgər Nicat Quliyev:**

- Komandirlərimizin söhbətləri, döyüş xatirələri hər birimizə örnəkdir. Çünki onların qəhrəmanlıqlarını dinləyə-dinləyə mətinləşmişik. Haradan oxuduğumu unutmuşam. "Ermənilər danışıqlardan yayınır, Ali Baş Komandanımız döyüş əmri verəcək. Kaş o əmr mən tərxis edilənə kimi veriləydi. Birinci Qarabağ müharibəsində iştirak etməyə yaşım çatmadı, İkinci Qarabağ müharibəsinin iştirakçısı olmaq istəyirəm". Belə düşünənlər çox olub. Biz belə düşüncələri yaddaşımıza köçürə-köçürə əsgərləşmişik. 2020-ci il sentyabrın 28-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Səbail rayon şöbəsinə müraciət edənləri də görürdük. Onda mən də müraciət edənlərin sırasındaydım. Məni də aparmadılar. O sentyabrda döyüşə bilməsəm də, bu sentyabrda döyüşdüm. Taleyimdən razıyam ki, mən də qalib əsgərlərin sırasındayam.

**Gizir Elvin Məmmədov:**

- Nicat, Elvin, Ülvi və başqaları kimi ürəyi Vətən sevgisi ilə döyünən əsgərə qarşı erməni hansı qüvvə ilə mübarizə aparacaq axı. Ermənistan başa çatan müharibədə məğlub dövlət kimi davranmır. Noyabrın 10-da üçtərəfli Bəyanat imzalandı. Bu sənəd Ermənistanın məğlubiyyət sənədi oldu. Ancaq Ermənistan bu sənədin şərtlərinə əməl etmirdi, razılaşmaya məhəl qoymurdu, müxtəlif miqyaslı təxribatlar törədirdi. Belə təxribatlar bəzən həmlə, bəzən hücum kimi aparılırdı. Azərbaycan Ordusu bu əməliyyatların qarşısını qətiyyətlə alırdı. Bu il sentyabrın 12-də də belə təxribat törətmək istədi. Təxribatın qarşısı alındı. Döyüşlərdə ordumuz mühüm qələbələr qazandı. İkinci Qarabağ müharibəsinin başlanmasının ikinci ildönümü ərəfəsində başlayan bu döyüşlər də Zəfər ovqatı ilə davam etdi...

**Əsgər Ülvi Əşrəfli:**

- Ermənistan regionda danışıqlardan yayınırdı. İkinci Qarabağ müharibəsinə kimi mən də Ali Baş Komandanın döyüş əmrini gözləmişəm. Bu əmr torpaqlarımızı işğaldan qurtaracaqdı, qələbə qazanacaqdıq, işğalı sonlandıracaqdıq. Sentyabrın 27-də Ermənistan silahlı birləşmələri hücum etdi. Azərbaycan Ordusunun hissələri hücumun qarşısını aldı. Ali Baş Komandanın döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Bu, İkinci Qarabağ müharibəsi idi, Azərbaycanın ədalətli müharibəsi idi.

**Əsgər Nicat Quliyev:**

- Bəli, Ülvinin dediyi kimi, bu müharibə Azərbaycanın ədalətli müharibəsi olmaqla yanaşı, xalqın müharibəsi idi, yəni, hamı müharibə ovqatı ilə yaşayırdı. Ordu xalqın inamını görürdü, hiss edirdi. Xatırlayıram ki, döyüşən ordunun heç nəyə ehtiyacı olmasa da, analar döyüş bölgəsinə müxtəlif yeməklər bişirib göndərirdilər. Əsgər anaları döyüşən orduya göndərdiyi yun köynəyi, corabı geyəcək hər əsgəri öz oğlu bilirdi.

**Əsgər Elvin İbrahimov:**

- Biz hərbi xidmətə İkinci Qarabağ müharibəsindən sonra gəlmişik. Məktəbdə müəllimlərimizdən, ailədə ata-anamızdan eşitdiklərimizi komandirlərimizin dedikləri tamamladı. Biz hərbi xidmətdə həm də İkinci Qarabağ müharibəsinin tarixini öyrənə-öyrənə mətinləşirik. Əsgərlərimiz sentyabr döyüşlərində də İkinci Qarabağ müharibəsinin ovqatı ilə döyüşdülər. Qələbə qazandılar. 2020-ci ilin noyabrında qazanılan Zəfər də, bu ilin sentyabrında qazanılan qələbə də təsdiqlədi ki, Azərbaycan Ordusu güclüdür, qüdrətlidir.

*Neçə on illər keçəcək, İkinci Qarabağ müharibəsi, qazanılan Zəfər yaddaşlarda da yaşadılacaq, tarixdə də. Əsgərlər işğaldan azad edilmiş ərazilərdə bu müharibədən qürurla danışırlar. Tərxis edildikdən sonra bu müharibədən də danışacaqlar, işğaldan azad edilmiş ərazilərdə xidmətdən də. Bu söhbətlər çağırışçıların dünyaduyumunu da formalaşdıracaq, onların vətənpərvərlik duyğularını da mətinləşdirəcək...*

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Daha bir təhlükəli PKK terrorçusu məhv edilib



Türkiyənin Milli Təhlükəsizlik Təşkilatı (MİT) PKK terror təşkilatına qarşı növbəti uğurlu antiterror əməliyyatı keçirib.

Türkiyə KİV-ləri xəbər verir ki, PKK-nın aparıcı şəxslərindən olan, çox təhlükəli terrorçu Fatma Onur dəqiq atəşlə məhv edilib.

Təhlükəli terrorçu İraqın şimalında yerləşən Sincar bölgəsində zərərsizləşdirilib.

1990-cı ildən PKK sıralarına daxil olan adıçəkilən şəxs təhlükəli terrorçu kimi MİT-in hədəfində olub.

## Pentaqon Ukrayna üçün NASAMS sistemlərinin istehsalına dair müqavilə imzalayıb



Pentaqon Ukrayna üçün NASAMS hava hücumundan müdafiə sistemlərinin istehsalı üzrə milyard dollarlıq müqavilə imzalayıb.

Ukrinform agentliyi xəbər verir ki, bu barədə Birləşmiş Ştatların Müdafiə Nazirliyinin rəsmi məlumatında bildirilir.

"Raytheon Co" kompaniyası Ukrayna üçün qabaqcıl hava hücumundan müdafiə sistemlərinin, həmçinin müvafiq avadanlıqların, ehtiyat hissələrinin istehsalı və xidmətlərin göstərilməsinə dair 1,216 milyard dollarlıq sifariş alıb", - məlumatda belə deyilir.

Eyni zamanda, istehsalın Massaçusets ştatının Tüksberi şəhərində həyata keçiriləcəyi və 2025-ci il noyabrın 28-dək başa çatacağı qeyd olunur. Müqavilənin maliyyələşdirilməsi üçün vəsait "Ukraynada Təhlükəsizliyə Yardım Təşəbbüsü" layihəsi çərçivəsində ayrılıb.

Ukrayna Silahlı Qüvvələri NASAMS sistemindən istifadəni artıq mənimsəyib və onların bir neçəsini döyüş növbəsinə qəbul edib. Kiyev bildirib ki, döyüş növbəsinin başlandığı ilk günlərdə bu sistemlərin on buraxılışı ilə on raket sıradan çıxarılaraq 100 faizlik nəticəyə nail olunub.

## Almaniya Polşaya raket əleyhinə səkkiz “Patriot” qurğusu təklif edib



Almaniya hakimiyyəti Polşa ərazisinə Ukraynanın hava hücumundan müdafiə raketinin düşməsindən sonra respublikada raket əleyhinə səkkiz "Patriot" buraxılış qurğusu yerləşdirməyi təklif edib.

Bu barədə Polşanın müdafiə naziri Mariuş Blaşak parlamentdəki çıxışında bildirib.

Onun sözlərinə görə, polşalı raketdən müdafiə mütəxəssisləri hesab edirlər ki, bu sistemlər "Ukraynanın qərbində özünü daha yaxşı doğrulda bilərdi".

Ötən həftə Almaniyanın müdafiə naziri "Patriot" raketdən müdafiə sistemlərini Polşada deyil, Ukraynanın qərbində yerləşdirmək barədə polşalı həmkarı Mariuş Blaşakın xahişini rədd edib. Almaniya hakimiyyəti dəfələrlə bildirib ki, tərəfdaşları ilə məsləhətləşmədən Kiyevə silah göndərmək fikrində deyil.

## NATO-nun Baş katibi: İran Rusiyaya silah verməyə son qoymalıdır



İran və ya digər başqa ölkələr Ukraynaya qarşı müharibədə Rusiyaya silah-sursat verilməsinə son qoymalıdır.

Bu barədə Alyansın baş katibi Yens Stoltenberq Buxarestdə təşkilata üzv ölkələrin xarici işlər nazirlərinin toplantısında bildirib.

Baş katib deyib ki, İran və ya heç bir başqa ölkə Rusiyaya raketlər, pilotsuz uçuş aparatları və ya hər hansı digər hərbi vasitələr verməməlidir.

**AZƏRTAC-ın materialları əsasında**

*İctimai-siyasi hazırlıq*

# Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir



Təsdiq olunan günün nizam qaydasına uyğun olaraq "N" hərbi hissəsində əsgərlərlə ictimai-siyasi hazırlıq dərsi keçirilirdi. Biz də fürsətdən istifadə edib dərsin gedişatını izlədik. İlkin olaraq burada diqqətimizi çəkən şəxsi heyət üçün nəzərdə tutulmuş ideoloji otağın müvafiq standartlara uyğun formalaşdırılması oldu. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Ali Baş Komandan İlham Əliyevin, müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətlə görüşünü əks etdirən şəkillər, dövlət atributlarımızı, tarixi qəhrəmanlarımızı, qan yaddaşımızı və Vətən müharibəsini əks etdirən stendlər hər birimizdə xoş təəssürat yaratdı.

Proqrama uyğun olaraq əsgərlər üçün nəzərdə tutulan mövzu "Ümummilli Lider Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" idi. Qrup rəhbəri kiçik leytenant Eşqin İbrahimov bildirdi ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin fəlsəfi, siyasi mənası olduqca dərindir. "Azərbaycançılıq milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Ümummilli Liderin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları deyil, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib. Ulu Öndər Heydər Əliyevin şah əsəri müasir müstəqil Azərbaycan dövlətidir. Bu dövlətin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir".

- Sovet dövründə respublika rəhbəri işləyərkən Heydər Əliyevin mənəviyyat, təhsil, mədəniyyət, əxlaq, milli adət-ənənələrin qorunması və inkişafı sahəsində gördüyü işlər müstəqil dövlətimizin yaradılması ilə nəticələndi, - deyə zabit sözlərinə davam etdi. - Azərbaycançılıq ideologiyası da məhz buradan qaynaqlanır. Müstəqillik illərində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyət kəsb etdi. Bu gün ölkəmiz Ümummilli Liderin ideyaları əsasında inkişaf edir. Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması, ölkəmizdə inkişafın, sabitliyin və həmrəyliyin təmin olunması bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Dərs prosesi bitdikdən sonra əsgərlərin fikirlərini öyrəndim. Hacıqabul rayonundan hərbi xidmətə çağırılan əsgər Cavidan Rəcəbli dedi ki, komandirlərimizin rəhbərliyi altında keçirilən ictimai-siyasi hazırlıq dərsinin köməkliyi ilə biz Vətənimizi, hərb tariximizi, qəhrəman, sərkərdə və dahi şəxsiyyətlərimizin həyat və döyüş yollarını daha dərindən öyrənirik. Bilmədiklərimizi isə komandirlərimizdən soruşuruq. Bugünkü mövzudan danışan Cavidan bildirdi ki, azərbaycançılığın ümummilli ideologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı.

Digər həmsöhbətim Şəki rayonunda dünyaya göz açıb. Öyrənirəm ki, orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılan əsgər Rəşad Məcidov ictimai-siyasi hazırlıq dərsində həvəslə iştirak edir. Keçirilən bütün mövzuları dərindən mənimsəyir.

Rəşad söhbətimiz zamanı bildirdi ki, keçirilən bütün dərs və məşğələlər sayəsində əsl Azərbaycan əsgərinin adına layiq formalaşan cəsur oğullarımız qarşılarına qoyulan bütün tapşırıqların öhdəsindən asanlıqla gəlməyə qadirdirlər. "44 günlük Vətən müharibəsi bunun əyani sübutudur".

Əsgərlər Rəşad Məsmalıyev, Zahir Zərbəliyev, Azər Əliyev, Rəhim Quliyev, Fərid Həsənov, Fərid Nurəliyev və digərləri Vətən qarşısında övladlıq borclarını yerinə yetirməklərindən, zəfərimizlə nəticələnən Vətən müharibəsindən, xidmətlərindən və ictimai-siyasi hazırlıq dərsinin mahiyyətindən söhbət etdilər. Bildirdilər ki, mənəvi-psixoloji hazırlığı yüksək olan əsgərlər daim qələbələr qazanacaqlar.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# Qırmızı qumlu Simpson səhrası



İngilis Styort Çarlz (1795-1869) 1845-ci ildə Avstraliya valisinin tapşırığı ilə təmiz su axtarmaq məqsədilə qitənin mərkəzi hissəsinə ekspedisiya təşkil edir. Beləcə, 1926-cı ildə xəritə tərtib edilərkən adı "Stert" səhrası kəşf edilir. 1929-cu ildə geoloq Sesil Mediqan təyyarə ilə ərazini müşahidə etdikdən sonra səhranı Allen Simpsonun şərəfinə "Simpson səhrası" adlandırır.

Simpson səhrası - Avstraliyanın mərkəzində yerləşən qırmızı qumlu səhradır. Ərazisi 143 min. km² təşkil edir. Qərbdən Finke çayı, şimaldan MakDonnel silsiləsi və Plenti çayı, şərqdən isə Mulliqan və Dayamantina çayları, cənubdan isə Eyr gölü ilə əhatə olunub.

1960-1980-ci illərdə səhrada nəticəsiz neft axtarışları aparılmışdır. XX əsrin sonlarından etibarən səhraya turistlər cəlb edilir.

Səhranın ərazisində Dyunlar silsilə şəkildə uzanır. Cənub-qərbdə qumlu-gilliceli, Eyr gölü hövzəsində isə gilli suxurlara sahibdir. Dyunların hündürlüyü 20-37 metr təşkil edir. Bu silsilələrin uzunluğu bəzi yerlərdə 160 km-dir. Kserofit kolluqlara sahibdir.

Simpson səhrası bir çox səhra canlılarının son sığınacağıdır. Bu yerlərdə bitki örtüyü nadirdir və quraqlığa davamlıdır. Tipik olaraq, burada bitən ağac növü - akasiya və evkaliptdir.

Digər çöllərdə olduğu kimi, gəmiricilər və kərtənkələlərə daha çox rast gəlinir. Avstraliya faunasına xas olan kisəli heyvanlar: kisəli siçanlar, böyük qırmızı kenquru, həmçinin vəhşi dəvələr və dingo itlərinə də Simpson çölündə rast gəlmək mümkündür. Səhra səmasında qartallar uçuşur. Akasiya kolluqlarında daha kiçik quşlara rast gəlinir: bunlar tutuquşular, qaranquşlar və kakatulardır.

1967-1977-ci illərdə səhra ərazisində bir neçə qorunan ərazi yaradılıb. Bunlardan ən böyüyü Simpson Səhrası Milli Parkıdır.

Səhrada yanvar ayının orta temperaturu 28-30 °C, iyul ayının isə - 12-15 °C təşkil edir. Şimalında yağıntının miqdarı 130 mm-dir. Səhradan Todd, Plenti, Heyl, Hey adlı kiçik çaylar axır.

Milli parkın rəsmiləri səhraya istirahətə gələn həvəskarlara səyahətləri üçün payız fəslini seçməyi məsləhət görürlər. Bu dövrdə təbiət daha əlverişli olur.

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanda gənc basketbolçular arasında Avropa çempionatı təşkil olunacaq




Azərbaycanda basketbol üzrə Avropa çempionatı keçiriləcək.

Ölkəmiz ilk dəfə gənclər arasında keçiriləcək qitə birinciliyinə ev sahibliyi edəcək.

On səkkiz yaşadək oğlanlar arasında təşkil olunacaq çempionatda iştirak edəcək komandaların adlarına isə gələn ilin yanvarında aydınlıq gələcək.

Avropa çempionatının oyunları 2023-cü il iyulun 29-dan avqustun 6-dək Bakıda keçiriləcək.

Qeyd edək ki, U-18 millimiz sonuncu çempionatda bürünc mükafatın sahibi olub.

## Azərbaycan idmançılar "strict curl" üzrə dünya kuboku yarışında uğurla çıxış ediblər




Qırğızıstanın paytaxtı Bişkekdə güc idman növü olan "strict curl" üzrə dünya kuboku yarışı keçirilib. Turnirdə Azərbaycan Strongmen Federasiyasının idmançıları uğurla çıxış ediblər.

Turnirdə idmançılarımız 8 qızıl, 2 gümüş medal və 2 mütləq çempionluq kubokuna sahib olublar.

Dünya kuboku yarışında İsa Abbaszadə qızıl, Sadiq Musayev və Sənan Şükürov (hər üçü 82,5 kq) gümüş medal qazanıblar. İ.Abbaszadə mütləq çempionluqda birinci, K.Məmmədli ikinci olublar. S.Musayev və S.Şükürov isə 33-39 yaş qrupunda qızıl medala sahib olublar.

Cəlal Əliyev (110 kq), Mübariz Musayev (140 kq) və 40-44 yaş kateqoriyasında mübarizə aparan Emin Nadirov (125 kq) bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

"Squat" hərəkətində Camal Əhmədzadə 292,5 kiloqram nəticə ilə turniri birinci pillədə başa vurub.

Gənclər yaş kateqoriyasında 82,5 kiloqram çəki dərəcəsində çıxış edən Muradəli Qəmbərli qızıl medala layiq görülüb.

## MMA döyüşçümüz Gündüz Nəbiyev "Octagon" liqasında növbəti qələbəsini qazanıb



Qazaxıstanın Almatı şəhərində Asiyanın ən nüfuzlu "TOP-2" MMA liqası olan "Octagon"da Azərbaycan təmsilçisi Gündüz Nəbiyev növbəti görüşünü keçirib.

G.Nəbiyev Qırğızıstan idmançısı Rəsul Kumbetbəkoğluna birinci raundda texniki nokautla qalib gəlib.

Bu, təmsilçimizin "Octagon" liqasında ikinci döyüşü və qələbəsi olub. G.Nəbiyev növbəti döyüşünü liqanın kəməri uğrunda keçirəcək.

## Superturnirdə Şəhriyar Məmmədyarovdan uğurlu start



Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov Hindistanın Kəlküttə şəhərində keçirilən "Tata Steel Chess India Rapid 2022" superturnirinə uğurla start verib.

Təmsilçimiz yarışın ilk 3 turunda hindistanlı şahmatçılar Dommaraju Qukeş, Sethuraman Panayappan Sethuraman və ABŞ idmançısı Uesli Soya qalib gəlib. Nəticədə 3 xal toplayan qrosmeysterimiz liderliyə yüksəlib.

Turnir dekabrın 12-dək davam edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1173
Nüsxə 4740